Cəbi Gülşən Zabit qızı,
hüquq elmləri üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasında dosent
E-mail: gulshanjabi@bsu.edu.az
Ünvan: Bakı, Akademik, 33 Zahid Xəlilov küçəsi
ORCID: 0000-0002-6875-3485

UOT 342.7, 342.9
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.193

AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL VƏ ƏMƏK HÜQUQLARININ POZULMASI İLƏ ƏLAQƏDAR İNZİBATİ MƏSULİYYƏT MƏSƏLƏLƏRİ

Açar sözlər: *Azərbaycan Respublikası, sosial hüquqlar, əmək hüquqları, hüquqi məsuliyyət, inzibati məsuliyyət*

Ключевые слова: *Азербайджанская Республика, социальные права, трудовые права, юридическая ответственность, административная ответственность*

Keywords: *Republic of Azerbaijan, social rights, labor rights, legal responsibility, administrative responsibility*

Məqalədə sosial dövlətin (rifah dövləti) formalaşmasında, insan və vətəndaşların hüquqları və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsində hüquqi məsuliyyətin əhəmiyyətinə dair bir sıra məsələlər nəzərdən keçirilmişdir.

Hüquqi məsuliyyətin müxtəlif növlərinə müqayisəli baxılaraq, xüsusilə sosial hüquqlar və əmək hüquqlarının müdafiəsində səmərəliliyin vacibliyi qeyd olunmuşdur.

Müəllif inzibati məsuliyyətin predmetinə daxil olan müxtəlif sahələr üzrə hüquqpozmaların sosial və əmək hüquqları sahəsində hüquqpozmalardan bir sıra fərqini ifadə etmişdir.

Məqalədə bilavasitə sosial və əmək hüquqlarının pozulması halında ədalətin bərpa edilməsi, hüquqpozmaya yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsində bu hüquqların və sahələrin fərqliliyi açıqlanmış, müəllif xüsusilə inzibati məsuliyyətə cəlb edilmə üçün yaş həddi məsələsinin hüququn digər sahələrinin (əmək hüququ, mülki hüquq) anlayışları ilə uyğun gəlmədiyini, müəyyən boşluqlar və ziddiyyətlərin mövcudluğunu bildirmişdir.

Məqalədə müəllif inzibati məsuliyyətə cəlbetmə yaşı müəyyənləşdirilərkən maddi hüquq münasibətlərinin, xüsusilə sosial hüquqlar və əmək hüquqlarına münasibətdə maddi hüquq normalarının məzmununun mütləq nəzərə alınmasını, yaşın buna uyğunluğunu təklif etmişdir.

Sosial dövlətin (rifah dövləti) formalaşması üçün insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin ali məqsəd olaraq müəyyənləşdirilməsi ilə bərabər real ictimai münasibətlərdə hüquqpozmaların qarşısının alınması, ədalətin bərqərar edilməsi üçün müvafiq hüquqi məsuliyyətin müəyyənləşdirilməsi də vacibdir.

Azərbaycan Respublikasında qüvvədə olan konstitusion-hüquqi normaları təhlil etdikdə yalnız Konstitusiyanın 12-ci maddəsində dövlətin ali məqsədinin müəyyənləşdirilməsi ilə deyil, həmçinin Preambulada xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat

səviyyəsini təmin etmək kimi niyyətlərin bəyanı ilə də sosial dövlət (rifah) dövləti kimi hədəfin müəyyənləşdirildiyini müşahidə etmək mümkündür. [1]

Hüquqi məsuliyyətin çoxnövlülüyü nəzərə alınarsa, sosial və əmək hüquqlarının pozulması halında da törədilmiş əməlin ağırlıq dərəcəsindən, xüsusiyyətlərindən asılı olaraq hüquqi məsuliyyətin müxtəlif növləri üzrə tərkib yaratması mümkündür.

Bu baxımdan sosial və əmək hüquqlarının pozulması ilə əlaqədar hüquqi məsuliyyət mövzusunu məhdud, dar baxışlarla deyil, kompleks hüquqi yanaşmalarla təhlil etmək həm elmi-nəzəri, həm də praktik fayda verə bilər.

Məlumdur ki, inzibati məsuliyyət ağırlıq dərəcəsi və nəticələri baxımından intizam xətalarından daha ağır olan inzibati xətalar üçün müəyyən olunur.

İntizam məsuliyyətindən fərqli olaraq inzibati məsuliyyət həm müəyyənedilmə, həm məsuliyyətə cəlb edilmə qaydası, həm də nəticələri, həm də subyektlər baxımından daha sərt mexanizmlərə malikdir.

İnzibati xətaların predmet tərkibinə baxdıqda xüsusilə sosial hüquqlar və əmək hüquqları sahəsində hüquqpozmaları həm intizam məsuliyyəti, həm də inzibati məsuliyyət üçün məsələlərdə müşahidə etmək mümkündür.

Sosial hüquqlar və əmək hüquqların realizəsi məkanları, ictimai münasibətlərin yayıldığı sahələr fərqli olduğundan hüquqpozmalara yol verildikdə inzibati məsuliyyət, intizam məsuliyyəti məsələlərində də fərqlər formalaşır.

Müqayisə üçün baxdıqda sosial hüquqlar yalnız əmək münasibətləri prosesində və ya əmək münasibətləri ilə bağlı müşahidə olunmursa (məs., əlillik, yaşlılıq, valideyn himayəsindən məhrum olma və s. hallar), əmək hüquqlarının realizəsi bilavasitə və ya dolayı şəkildə əmək hüquq münasibətləri ilə əlaqəli olur. Bu baxımdan subyektlər, məkanlar barəsində də həm şablonlaşan subyektlər, həm də qeyri-standart subyektlər müşahidə oluna bilir.

Məs., sosial hüquqların pozulması ilə bağlı hüquqpozmaya yol verən şəxs hər hansı fiziki şəxs, hüquqi şəxs, inzibati orqan, vəzifəli şəxs ola bilərsə, əmək hüquqlarının pozulmasında subyektlər işəgötürən qismində çıxış edən hüquqi və ya fiziki şəxslər, nəzarət funksiyasının daşıyıcısı olan inzibati orqanlar, digər işçilər və s. əmək münasibətlərinin iştirakçıları ola bilir.

Buna uyğun olaraq əmək hüquqlarının pozulması halında məsuliyyət üçün pozuntunun növündən asılı olaraq, Əmək Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi əsas normaları müəyyən edən mənbələrdirsə, sosial hüquqların pozulması halında məsuliyyət üçün Əmək Məcəlləsinin normaları İnzibati Xətalar Məcəlləsinin, Cinayət Məcəlləsinin normaları ilə müqayisədə məhdud tənzimləmə imkanlarına malik olur.

Azərbaycan Respublikasında qüvvədə olan İnzibati Xətalar Məcəlləsinin "İnsan və vətəndaşın hüquq və azadlıqları əleyhinə olan inzibati xətalar" adlanan 21-ci fəsli təhsil sahəsində, əqli mülkiyyət hüququnun müxtəlif növlərinə münasibətdə, uşaqların təlim-tərbiyəsi ilə əlaqədar, yetkinlik yaşına çatmayan şəxsləri nikah münasibətlərinə məcburetmə, uşaq və valideyn münasibətləri, əmək münasibətləri, əmək pensiyaları, sosial müavinətlər, həmkarlar ittifaqları, sosial xidmət, əməyin mühafizəsi, iş yerində cinsi qısnamalar, əlilliyi olan şəxslərin hüquqları və digər məsələlərə dair inzibati hüquqpozmalar üçün inzibati məsuliyyət müəyyənləşdirmişdir. [2]

Fikrimizcə, qeyd olunan çoxşaxəliliyə yalnız predmet baxımından yox, subyektlər baxımından da diqqət yetirmək vacibdir.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 16.1. maddəsinə əsasən inzibati xəta törədərkən on altı yaşı tamam olmuş fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. Lakin nəzərə alsaq ki, qüvvədə olan əmək qanunvericiliyinə əsasən 15 yaşına çatmış şəxsin əmək müqaviləsi bağlamaq, əmək müqaviləsinin tərəfi olmaq, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ var, belə aydın olur ki, müvafiq hüquq münasibətlərinin subyekti olsa da, bir il ərzində,

fiziki olaraq 16 yaşı tamam olanadək inzibati məsuliyyət daşımır. 15-16 yaş aralığında olan şəxsin əmək, sahibkarlıq hüquq münasibətlərinin tərəfi olması üçün valideynlərin razılığı tələb olunsa da, valideynlər konkret hüquq münasibətində tərəf olmur, buna uyğun olaraq konkret predmetlər üzrə hüquqpozma halında da inzibati məsuliyyətin subyekti olmurlar.

Mülki hüququn anlayışlarından fərqli olaraq, inzibati məsuliyyətdə emansipasiya qaydasında tam fəaliyyət qabiliyyəti anlayışı olmadığından, 15 yaşına çatmış, lakin 16 yaşı olmayan şəxsin inzibati məsuliyyəti məsələsi də yaranmır.

Bu isə bir illik bir dövrdə baş verə bilən, baş verən hüquqpozmalarda ədalət, hüquqi məsuliyyət məsələlərinin boşluğu demək olur.

Məsuliyyət məsələləri maddi hüquq münasibətlərinin yaranma əsaslarına uyğun müəyyən edilər.

Digər kateqoriya inzibati hüquqpozmaların aid olduğu maddi hüquq münasibətləri 16 yaşdan yuxarı insanlarda müşahidə olunursa, 15 yaşına çatmış şəxs tərəfindən əmək müqaviləsinin bağlanması hüququnun mövcudluğu onu əmək hüquq münasibətlərinin tərəfinə çevirməklə, həm də tərəf kimi hüquqi məsuliyyət məsələsinin təhlilini tələb edir.

Azərbaycan Respublikasında qüvvədə olan bir sıra qanunvericilik aktlarının müvafiq məsələ üzrə müddəalarının müqayisəsində ziddiyyət və boşluğun mövcudluğu müşahidə olunur.

Azərbaycan Respublikasında qüvvədə olan Mülki Məcəllənin 28.4. maddəsinə görə 16 (on altı) yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Hər iki valideynin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya). [3]

Azərbaycan Respublikasında qüvvədə olan Əmək Məcəlləsinin 42.3. maddəsinə görə 15 (on beş) yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxslə əmək müqaviləsi bağlanıla bilməz.[4]

Azərbaycan Respublikasının 19 may 1992-ci ildə ratifikasiya etdiyi, Beynəlxalq Əmək Təşkilatının 1973-cü il tarixli, 138 №-li "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında Konvensiya"sının müddəalarına əsasən, ümumi qayda olaraq işə qəbul üçün minimum yaş 15-dən aşağı ola bilməz. Bu yaş həm də məcburi təhsilin başa çatdığı yaşdan aşağı olmamalıdır**.** [5]

Beynəlxalq normalarda müəyyənedici meyar olaraq və çox ciddi məzmuna malik əlamət əmək fəaliyyətinə başlamaq üçün icazə verilən yaşın məcburi təhsilin başa çatdığı yaşdan aşağı olmaması barədə tələbdir.

Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının 42.II. maddəsi müəyyən etmişdir ki, dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

Deməli, konstitusion müddəalar və tərəfdar çıxdığımız beynəlxalq aktların müddəaları əsas götürülərək sahəvi qanunvericilik aktlarının müddəalarında mütənasiblik, uyğunluq gözlənilməlidir.

İnzibati Xətalar Məcəlləsinin 16.1. maddəsinə əsasən isə inzibati xəta törədərkən 16 (on altı) yaşı tamam olmuş fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar.

Belə bir situasiyada, məsələn, 15-16 yaş aralığında olan işçi əməyin mühafizəsi, təhlükəsizliyi qaydalarını pozarsa, bununla digər işçilərin həyat və sağlamlığına, qanunvericiliklə qorunan maraq və mənafelərə ziyan vurarsa, inzibati məsuliyyət məsələsi yaş senzi baxımından formalaşmır. Həmin kateqoriya işçilər üçün intizam tənbehi, yaxud cinayət məsuliyyəti kimi məsuliyyət növləri məsələsi qalır.

Halbuki inzibati məsuliyyət həm də intizam məsuliyyəti ilə cinayət məsuliyyəti arasında sanki balans qoruma xüsusiyyətinə

malik olmaqla, insanları, cəmiyyəti izafi kriminallaşmadan qoruyur, çəkindirir.

Bu baxımdan düşünürük ki, inzibati xətalara daxil edilən digər maddi hüquq münasibətlərindən fərqli olaraq, sosial hüquqlar və əmək hüquqları, ümumiyyətlə əmək hüquq münasibətləri sahəsində hüquqpozmalara görə məsuliyyətə cəlbetmə yaşı ilə maddi hüquq münasibətinin tərəfi olmaq yaşı arasında uyğunluq olmalıdır.

Qeyd olunanları nəzərə alaraq, qüvvədə olan inzibati xətalar qanunvericiliyinin yaş senzi barədə müddəalarının maddi hüquq münasibətlərinin xüsusiyyətləri nəzərə alınaraq müəyyənləşdirilməsi təklif olunur.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası https://e-qanun.az/framework/897 14.08.2026
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi https://e-qanun.az/framework/46960#f2 14.08.2026
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi https://e-qanun.az/framework/46944 16.08.2026
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi https://e-qanun.az/framework/46943 16.08.2026
5. Beynəlxalq Əmək Təşkilatının 138 №-li Konvensiyası, "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında Konvensiya" https://e-qanun.az/framework/8424 16.08.2026

Джаби Гюльшан Забит гызы,
доктор философии по праву, доцент кафедры конституционного права юридического факультета Бакинского государственного университета

ВОПРОСЫ АДМИНИСТРАТИВНОЙ ОТВЕТСТВЕННОСТИ, СВЯЗАННЫЕ С НАРУШЕНИЕМ СОЦИАЛЬНЫХ И ТРУДОВЫХ ПРАВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

В статье рассматривается ряд вопросов, связанных с важностью правовой ответственности в формировании социального государства (государства всеобщего благосостояния), в обеспечении прав и свобод людей и граждан, а также в обеспечении достойного уровня жизни граждан.

Путем сравнения различных видов правовой ответственности отмечена важность эффективности в защите социальных прав и, в частности, трудовых прав.

Автор выявил ряд различий между правонарушениями в различных областях, попадающими в сферу административной ответственности, и правонарушениями в области социальных и трудовых прав.

В статье разъясняются различия между этими правами и областями в восстановлении правосудия в случае прямого нарушения социальных и трудовых прав и в привлечении к ответственности лиц, совершивших правонарушения. Автор, в частности, отмечает, что вопрос о возрастном пределе для привлечения к административной ответственности не соответствует концепциям других областей права (трудовое право, гражданское право), и что существуют определенные пробелы и противоречия.

В статье автор предложил учитывать содержание материально-правовых отношений, особенно в отношении социальных и трудовых прав, и устанавливать, что возраст ответственности должен соответствовать этому.

Jabi Gulshan Zabit,
PhD in Law, Associate Professor, Department of Constitutional
Law of the Faculty of Law, Baku State University

ADMINISTRATIVE LIABILITY ISSUES RELATED TO VIOLATION OF SOCIAL AND LABOR RIGHTS IN THE REPUBLIC OF AZERBAIJAN

The article examines a number of issues related to the importance of legal liability in the formation of a social state (welfare state), the protection of the rights and freedoms of individuals and citizens, and ensuring a decent standard of living for citizens.

By comparing different types of legal liability, the article highlights the importance of effectiveness in protecting social rights, particularly labor rights.

The author identifies a number of differences between offenses in various areas falling within the scope of administrative liability and offenses concerning social and labor rights.

The article explains the differences between these rights and areas with regard to the restoration of justice in cases of direct violations of social and labor rights and the imposition of liability on persons who have committed such offenses. In particular, the author notes that the issue of the age threshold for imposing administrative liability is inconsistent with the concepts applied in other areas of law, such as labor law and civil law, and that certain gaps and contradictions exist.

The author proposes that the substance of substantive legal relations, particularly those concerning social and labor rights, should be taken into account, and that the age of liability should be established accordingly.

Redaksiyaya daxilolma tarixi: 07.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.08. 2026
Çapa qəbul olunma tarixi: 18.08.2026